# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 8 dekabr 2022-ci il

№ 434

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 8 dekabr
tarixli 434 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 6.9-cu maddəsinə əsasən hazırlanmışdır və enerji auditorlarının ixtisas attestatının forması və verilməsini, qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını müəyyən edir.

1.2. Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının verilməsi, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Azərbaycan Respublikasının Energetika Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən həyata keçirilir.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. **attestasiya** - enerji auditinin həyata keçirməsi üçün ixtisas attestatının verilməsi məqsədilə namizədin bilik səviyyəsinin yoxlanılması;

1.3.2. **enerji auditi üzrə təşkilat** - enerji auditi xidmətlərini göstərən hüquqi şəxs;

1.3.3. **ixtisas attestatı** - enerji auditini həyata keçirmək üçün fiziki şəxsin uyğunluğunu təsdiq edən sənəd;

1.3.4. **namizəd** - enerji auditorunun ixtisas attestatının əldə edilməsi üçün müraciət edən fiziki şəxs;

1.3.5. **reyestr** - enerji auditi üzrə təşkilatların və enerji auditini

həyata keçirmək hüququ qazanmış enerji auditorlarının vahid məlumat bazasıdır.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Enerji auditoruna dair tələblər

2.1. Qaydaya uyğun olaraq Nazirlikdən ixtisas attestatı almış, energetika və iqtisadi sahələrdə ali təhsilə malik və müvafiq ixtisası üzrə ən azı 3 (üç) il iş təcrübəsi olan şəxslər enerji auditoru kimi fəaliyyət göstərmək hüququna malikdirlər.

2.2. Energetika və iqtisadi sahələrdə cinayət törətməyə görə məhkum edilmiş şəxslər enerji auditoru kimi fəaliyyət göstərə bilməzlər.

## 3. Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması və verilməsi qaydası

3.1. Qanunun 6.7-ci maddəsinə əsasən enerji auditi üzrə təşkilat işçisinin enerji auditoru kimi fəaliyyət göstərməsi üçün ixtisas attestatının verilməsi məqsədilə Nazirliyə yazılı və ya elektron qaydada ərizə (1 nömrəli əlavə) ilə müraciət edir.

3.2. Ərizəyə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla aşağıdakı sənədlər əlavə olunur:

3.2.1. kadrlar uçotunun şəxsi vərəqəsi;

3.2.2. şəxsiyyətini təsdiq edən sənədin surəti;

3.2.3. enerji auditi üzrə təşkilatla namizəd arasında bağlanılmış əmək müqaviləsinə dair Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış;

3.2.4. bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş sahələr üzrə ali təhsil haqqında diplomun surəti;

3.2.5. əlavə təhsilə dair sənədin surəti (olduğu halda);

3.2.6. əmək kitabçasının surəti;

3.2.7. məhkumluq barədə arayış (Qanunun 6.10-cu maddəsi nəzərə alınmaqla).

3.3. Enerji auditorunun ixtisas attestatı aşağıdakı ixtisas kateqoriyalarının hər biri üçün ayrılıqda verilir və enerji auditorları bu kateqoriyalardan biri və ya ikisi üzrə ixtisas attestatı almaq hüququna malikdir:

3.3.1. təsərrüfat subyektlərində enerji auditinin keçirilməsi üzrə;
3.3.2. binalarda (qurğularda) enerji auditinin keçirilməsi üzrə.
3.4. Təqdim edilmiş sənədlərə Nazirlik tərəfindən bu Qaydanın 3.5-ci bəndi nəzərə alınmaqla 10 (on) iş günü müddətində baxılaraq, namizədin attestasiyaya buraxılması haqqında qərar qəbul edilir, yazılı və ya elektron qaydada enerji auditi üzrə təşkilata göndərilir.
3.5. Bu Qaydanın 3.2-ci bəndində qeyd olunan sənədlər təqdim olunmadıqda və yaxud təqdim olunmuş sənədlərdə çatışmazlıq aşkar edildikdə, Nazirlik bu barədə 3 (üç) gün müddətində yazılı və ya elektron formada enerji auditi üzrə təşkilatı məlumatlandırır. Enerji auditi üzrə təşkilat 7 (yeddi) iş günü müddətində çatışmazlıqların aradan qaldırılmasını və çatışmayan sənədlərin təqdim olunmasını təmin etməlidir. Bu zaman Qaydanın 3.4-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır.
3.6. Sənədlərdə aşkar olunmuş çatışmazlıqlar enerji auditi üzrə təşkilat tərəfindən bu Qaydanın 3.5-ci bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda, namizədin attestasiyaya buraxılmasından imtina olunması barədə qərar qəbul edilir və 3 (üç) iş günü müddətində bu barədə yazılı və ya elektron qaydada enerji auditi üzrə təşkilata məlumat göndərilir. Bu qərardan inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər.
3.7. Attestasiya test üsulu ilə Nazirlik tərəfindən həyata keçirilir.
3.8. Attestasiyanın keçirilməsi zamanı namizəd aşağıdakı hərəkətlərə yol verməməlidir:
3.8.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, attestasiyaya öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;
3.8.2. attestasiya zamanı kalkulyator istisna olunmaqla mobil telefon və digər rabitə vasitələri, konspekt, məlumat kitabçası və digər yardımçı vasitələrdən istifadə etmək;
3.8.3. attestasiya başlanıldığı andan icazəsiz yerini dəyişmək, gəzişmək, attestasiyanın gedişinə mane olmaq;
3.8.4. digər namizədin nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab vərəqinə baxmaq və ya öz cavab vərəqinə başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
3.8.5. nəzarətçiyə və digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
3.8.6. cavab vərəqini nəzarətçiyə təhvil vermədən attestasi-

yanın keçirildiyi zalı tərk etmək;

3.8.7. attestasiya keçirilən binaya yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla daxil olmaq, özü ilə tütün məmulatı gətirmək;

3.8.8. səbəbindən asılı olmayaraq, attestasiya başlandığı andan 1 (bir) saat bitənədək və attestasiyanın son 30 dəqiqəsi ərzində attestasiya keçirildiyi zaldan çıxmaq.

3.9. Namizədin bu Qaydanın 3.8-ci bəndində qeyd edilən hərəkətlərə yol verməsi halları Nazirlik tərəfindən aşkar edildikdə, onun attestasiya nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

3.10. Attestasiya üçün test tapşırıqları bu Qaydanın 3.3-cü bəndində qeyd edilən ixtisas kateqoriyalarının hər biri üçün ayrılıqda Nazirlik tərəfindən hazırlanır. Test tapşırıqlarının hazırlanması üçün əsas olan Attestasiya Proqramı Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir. Test tapşırıqlarının hazırlanmasına bu Qaydanın 2.1-ci bəndində qeyd edilən sahələr üzrə mütəxəssislər cəlb edilə bilərlər.

3.11. Test tapşırıqları Nazirlik tərəfindən təsdiq edilir və zərfə qoyulub möhürlənməklə xüsusi yerdə saxlanılır. Nazirlik, həmçinin test tapşırıqlarının düzgün cavablarının siyahısını hazırlayır və onun konfidensiallığını təmin edir.

3.12. Attestasiyanın keçiriləcəyi vaxt və yer barədə məlumat attestasiyanın keçirilməsindən ən azı 10 (on) gün əvvəl Nazirliyin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və namizədlərə elektron qaydada göndərilir.

3.13. Testin müddəti 2 (iki) saatdır və fasilə verilmədən keçirilir.

3.14. Test tapşırıqlarının aşağıdakı növləri vardır:

3.14.1. qapalı tipli, yəni verilən cavab variantlarından 1 (bir) doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb edilən;

3.14.2. açıq tipli, yəni cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazı ilə ifadə olunması tələb edilən.

3.15. Test zamanı 40 (qırx) qapalı tipli və 10 (on) açıq tipli olmaqla, 50 (əlli) test tapşırığı təqdim edilir.

3.16. Test tapşırıqları üzrə qapalı tipli suallar üzrə hər düz cavab 1 (bir) balla, açıq tipli suallar üzrə hər düz cavab 2 (iki) balla, düzgün olmayan cavab və ya cavabsız saxlanma 0 (sıfır) balla qiymətləndirilir.

3.17. Test nəticəsində ən azı 45 bal toplamış namizədlər attestasiyadan keçmiş hesab olunurlar.

3.18. Testin nəticələri 3 (üç) iş günü müddətində Nazirliyin rəsmi

internet səhifəsində yerləşdirilir və testdə iştirak etmiş namizədə onun müraciəti əsasında testin nəticəsi barədə arayış verilir.

3.19. Testin nəticəsindən narazı qalan namizəd bu barədə nəticənin elan olunduğu tarixdən 5 (beş) iş günü müddətində inzibati qaydada və (və ya) məhkəməyə şikayət vermək hüququna malikdir.

3.20. Şikayətə Nazirlik tərəfindən 10 (on) iş günü müddətində baxılır və namizədə əsaslandırılmış cavab verilir. Namizədin nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, yenidən hesablanma aparılır və namizədin nəticələri yenilənir.

3.21. Testdən uğurla keçmiş namizədlərə test nəticələrinin elan olunduğu tarixdən 5 (beş) iş günü müddətində bu Qaydanın 2 nömrəli əlavəsində müəyyən edilən formada ixtisas attestatı verilir. Testdən keçməyən namizədlər ixtisas attestatı almaq üçün təkrar Nazirliyə müraciət etmək hüququna malikdirlər.

3.22. İxtisas attestatı onu verən qurumun rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır, möhürlə təsdiq edilir və reyestrdə qeydiyyata alınır.

3.23. İxtisas attestatında aşağıdakılar qeyd edilir:

3.23.1. ixtisas attestatını verən qurumun adı;

3.23.2. ixtisas attestatı verilən enerji auditorunun adı, atasının adı və soyadı;

3.23.3. enerji auditorunun işlədiyi enerji auditi üzrə təşkilatın adı;

3.23.4. enerji auditorunun ixtisas kateqoriyası;

3.23.5. ixtisas attestatının nömrəsi, verilmə tarixi və qüvvədəolma müddəti.

3.24. İxtisas attestatının əsli 1 (bir) nüsxədən ibarət olaraq enerji auditoruna verilir, ixtisas attestatının verilməsini təsdiq edən sənədlər isə Nazirlikdə saxlanılır.

3.25. İxtisas attestatı yararsız hala düşdükdə və ya itirildikdə, enerji auditoruna ixtisas attestatının dublikatı verilir. Bu halda enerji auditi üzrə təşkilat tərəfindən ixtisas attestatının dublikatının alınması üçün Nazirliyə elektron və ya yazılı qaydada müraciət edilir. İxtisas attestatının dublikatı müraciət edildiyi gündən 3 (üç) iş günü müddətində enerji auditi üzrə təşkilata ödənişsiz verilir.

3.26. İxtisas attestatı aşağıdakı hallarda enerji auditi üzrə təşkilatın ərizəsi əsasında ərizə Nazirliyə daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində yenidən rəsmiləşdirilir:

3.26.1. enerji auditi üzrə təşkilat yenidən təşkil edildikdə;

3.26.2. enerji auditi üzrə təşkilatın adı və ya hüquqi ünvanı dəyişdikdə;

3.26.3. enerji auditorunun adı, atasının adı və soyadı dəyişdikdə;

3.26.4. enerji auditorunun iş yeri dəyişdikdə.

3.27. Bu Qaydanın 3.26-cı bəndində nəzərdə tutulmuş ərizəyə yenidən rəsmiləşdirilməli olan ixtisas attestatının əsli, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın və enerji auditorunun şəxsiyyət vəsiqəsinin surəti əlavə edilir.

3.28. İxtisas attestatı müddətsiz verilir.

## 4. İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi qaydası

4.1. Enerji auditoru öz fəaliyyətini həyata keçirərkən Qanunun, habelə energetika və enerji resurslarından səmərəli istifadə sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə riayət etməlidir.

4.2. Nazirlik aşağıda qeyd edilən əsaslardan biri olduqda, ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması barədə qərar qəbul edir:

4.2.1. ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması barədə enerji auditi üzrə təşkilat tərəfindən elektron və ya yazılı qaydada ərizə təqdim edildikdə;

4.2.2. Nazirlik tərəfindən enerji auditorunun (enerji auditi üzrə təşkilatın) fəaliyyətinə nəzarət həyata keçirilərkən, həyata keçirilən enerji auditləri üzrə pozuntular aşkar edildikdə.

4.3. Bu Qaydanın 4.2.2-ci yarımbəndində nəzərdə tutulmuş hal olduqda, ixtisas attestatının qüvvədəolma müddəti 30 (otuz) gün müddətinə dayandırılır.

4.4. Pozuntular aşkar edildiyinə görə ixtisas attestatının qüvvədəolma müddəti dayandırılmış enerji auditoru işlədiyi enerji auditi üzrə təşkilat vasitəsilə bu Qaydanın 4.3-cü bəndi ilə müəyyən edilmiş müddətdə Nazirliyə yol verilmiş pozuntuların səbəbləri, habelə bu pozuntuların aradan qaldırılması məqsədilə həyata keçirilən tədbirlər barədə elektron və ya yazılı qaydada məlumat təqdim etməlidir.

4.5. Bu Qaydanın 4.4-cü bəndində nəzərdə tutulmuş məlumat 30 (otuz) gün müddətində təqdim edilmədikdə, Nazirlik ixtisas attestatının ləğv edilməsi barədə qərar qəbul edir.

4.6. Bu Qaydanın 4.2.1-ci yarımbəndində qeyd edilən hallarda enerji auditi üzrə təşkilat qüvvədəolma müddətinin bərpası üçün elektron və ya yazılı qaydada ərizə ilə Nazirliyə müraciət edir.

4.7. İxtisas attestatının ləğv edilməsi barədə qərar aşağıdakı hallarda qəbul edilir:

4.7.1. ixtisas attestatının ləğv edilməsi barədə enerji auditi üzrə təşkilat tərəfindən elektron və ya yazılı qaydada ərizə təqdim edildikdə;

4.7.2. enerji auditi üzrə təşkilat ləğv edildikdə;

4.7.3. ixtisas attestatı almış fiziki şəxs fəaliyyət qabiliyyətsizliyinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

4.7.4. ixtisas attestatı almış fiziki şəxs vəfat etdikdə;

4.7.5. bu Qaydanın 4.2.2-ci yarımbəndində qeyd edilən hal təqvim ili ərzində ən azı 3 (üç) dəfə təkrar edildikdə;

4.7.6. bu Qaydanın 4.5-ci bəndində nəzərdə tutulmuş hallarda;

4.7.7. enerji auditi fəaliyyətinin həyata keçirilməsi zamanı kommersiya və qanunla mühafizə olunan digər məlumatların gizli saxlanması təmin edilmədikdə və yaxud onlardan digər məqsədlər üçün istifadə edildikdə;

4.7.8. bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş sənədlərdə yanlış və ya təhrif olunmuş faktlar aşkar edildikdə;

4.7.9. ixtisas attestatı almış fiziki şəxsin fəaliyyət qabiliyyətinin olmaması və ya itkin düşməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.

4.8. İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması, bərpa olunması və ya onun ləğv edilməsi haqqında qərar qəbul edildiyi tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə elektron və ya yazılı qaydada təqdim edilir. Qərardan narazı olan enerji auditi üzrə təşkilat və ya enerji auditoru inzibati qaydada və (və ya) məhkəməyə şikayət vermək hüququna malikdir.

4.9. İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması, bərpa olunması və ləğv edilməsi haqqında məlumatlar reyestrə daxil edilir.

## 5. Enerji auditorları və enerji auditləri üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası

5.1. Reyestr Nazirlik tərəfindən bu Qaydanın 3 nömrəli əlavəsində qeyd edilən formada elektron qaydada aparılır və

mütəmadi olaraq yenilənir.

5.2. Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

5.2.1. enerji auditi üzrə təşkilatın adı, təşkilati-hüquqi forması və ünvanı;

5.2.2. enerji auditorunun soyadı, adı, atasının adı və ünvanı;

5.2.3. ixtisas attestatının nömrəsi, verilmə və qüvvədəolma tarixi;

5.2.4. ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat;

5.2.5. bu Qaydanın 3.3-cü bəndinə əsasən ixtisas attestatının əhatə etdiyi ixtisas kateqoriyası;

5.2.6. əlaqə vasitələri (telefon və elektron poçt ünvanı);

5.2.7. həyata keçirilən enerji auditləri barədə məlumat;

5.2.8. enerji auditorunun reyestrdən çıxarılması tarixi və səbəbləri;

5.2.9. enerji auditorunun fəaliyyətində aşkar edilmiş nöqsanlar barədə məlumat.

5.3. Enerji auditorlarının və enerji auditi üzrə təşkilatların fəaliyyəti dayandırıldıqda və ya fəaliyyətlərinə xitam verildikdə, onlar reyestrdə ayrıca bölmədə qeyd olunur.

5.4. Fəaliyyəti dayandırılmış enerji auditi üzrə təşkilatın və enerji auditorunun fəaliyyəti bərpa edildikdə, onlar barəsində müvafiq məlumatlar yenidən reyestrə daxil edilir.

5.5. Qanunun 6.12-ci maddəsinə əsasən enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinə daxil edilən məlumatlar Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.

5.6. Enerji auditi üzrə təşkilat Qanunun 6.14-cü maddəsinə əsasən fəaliyyəti barədə illik hesabatı hər təqvim ilindən sonra gələn növbəti ilin yanvar ayının 31-nə qədər Nazirliyə təqdim edir və hesabata aşağıdakı sənədlər əlavə edilir:

5.6.1. təqvim ili ərzində həyata keçirilən enerji auditlərinin siyahısı;

5.6.2. hər enerji auditinin nəticəsinə dair hesabatın surəti.

5.7. Təqvim ili ərzində heç bir enerji auditi keçirilmədiyi halda enerji auditi üzrə təşkilat tərəfindən Nazirliyə məlumat verilir.

5.8. Enerji auditi üzrə təşkilatlar enerji auditlərinin elektron qaydada uçotunu aparır və “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi nəzərə alınmaqla saxlanılmasını təmin edir.

5.9. Nazirlik təqdim edilən hesabatların reyestrdə qeydiyyatını həyata keçirir.

5.10. Enerji auditinin keyfiyyətinin yoxlanılması həmin auditin sifarişçisinin müraciəti əsasında da həyata keçirilə bilər.

5.11. Təqdim edilən enerji auditi hesabatlarındakı məlumatların həqiqiliyinə şübhə yarandıqda Nazirlik aşağıdakı tədbirləri həyata keçirmək hüququna malikdir:

5.11.1. enerji auditi üzrə təşkilatdan enerji auditi aparılan obyekt haqqında əlavə məlumatları tələb etmək və dəqiqləşdirmələr aparmaq;

5.11.2. enerji auditi ilə bağlı məlumatları yoxlamaq üçün enerji auditinin sifarişçisi ilə əlaqə saxlamaq;

5.11.3. bu Qaydanın 5.10-cu bəndində nəzərdə tutulan hallarda enerji auditi həyata keçirilmiş obyektə maneəsiz daxil olmaq və monitorinq aparmaq.

5.12. Enerji auditinin bu Qayda ilə müəyyən edilmiş tələblərə cavab vermədiyi müəyyən edildikdə, həmin auditi həyata keçirən enerji auditoru və enerji auditi üzrə təşkilat tərəfindən həyata keçirilən bütün enerji auditləri Nazirlik tərəfindən yoxlanıla bilər.

5.13. Enerji auditində 2 və daha çox enerji auditoru iştirak etdiyi və enerji auditi üzrə cavabdeh olduqları sahələrin müəyyən edilməsi mümkün olmadıqda, yoxlamanın nəticəsi üzrə enerji auditində iştirak etmiş bütün enerji auditorları birgə məsuliyyət daşıyırlar.

5.14. Yoxlamanın nəticələri Nazirlik tərəfindən protokollaşdırılır və müəyyən edilmiş çatışmazlıqlar qeyd edilir.

5.15. Yoxlama nəticəsində aşkar olunan çatışmazlıqlar barədə enerji auditi üzrə təşkilata bildiriş göndərilir və bildirişə çatışmazlıqların aradan qaldırılması və bir daha təkrarlanmaması ilə bağlı tapşırıqlar və tövsiyələr əlavə edilir. Enerji auditi üzrə təşkilat çatışmazlıqların aradan qaldırılması məqsədilə həyata keçirilən tədbirlər barədə elektron və ya yazılı qaydada Nazirliyə məlumat təqdim edir.

5.16. Enerji auditorları və enerji auditi üzrə təşkilatlar enerji auditinin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı Nazirliyin göstərişlərinə riayət etməlidir.

“Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası”na

**1 nömrəli əlavə**

________________________________________
(müraciət olunan təşkilatın adı)

**Enerji auditorunun ixtisas attestatının alınması üçün**

**ƏRİZƏ**

1. Enerji auditi üzrə təşkilatın adı ________________________________
2. Hüquqi ünvanı ____________________________________________
3. Əlaqə vasitələri __________________________________________
4. Aşağıda qeyd olunan şəxsə (şəxslərə) enerji auditini həyata keçirmək üçün ixtisas attestatının verilməsini xahiş edirik.

| Soyadı, adı, atasının adı | İxtisas kateqoriyası |
|---|---|

5. “Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası”nın 3.1-ci bəndinə əsasən ərizəyə (müraciətə) əlavə edilmiş sənədlərin siyahısı

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

Enerji auditi üzrə təşkilatın rəhbəri və ya nümayəndəsi

_______________________ ___________________ ____________
(soyadı, adı, atasının adı) (imza) (tarix)

___________________
M.Y.

"Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"na

**2 nömrəli əlavə**

**AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ**

**ENERJİ AUDİTORUNUN**
**İXTİSAS ATTESTATI**

**№ __________**

___________________________________________________________
(enerji auditorunun adı, atasının adı, soyadı)

Enerji auditi üzrə təşkilatın adı ________________________________

___________________________________________________________
(təşkilati-hüquqi forması və hüquqi ünvanı)
___________________________________________________________

Enerji auditorunun ixtisas kateqoriyası ___________________________

İxtisas attestatının verilməsi tarixi ______________________________

Qüvvədəolma tarixi (müddətsiz) ________________________________

**Azərbaycan Respublikasının**
**energetika naziri**

İmza ___________

M.Y.

“Enerji auditinin həyata keçirilməsi üçün ixtisas attestatının forması, verilməsi qaydası, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası”na

**3 nömrəli əlavə**

## Enerji auditorları və enerji auditi üzrə təşkilatların reyestrinin

## FORMASI

| Sıra №-si | Təşkilatın adı, təşkilati-hüquqi forması və ünvanı | Enerji auditorunun soyadı, adı, atasının adı və ünvanı | İxtisas attestatının nömrəsi, verilməsi və qüvvədəolma tarixi | Enerji auditorunun ixtisas kateqoriyası | İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat | Əlaqə vasitələri (telefon nömrələri, elektron poçt ünvanı) | Enerji auditorunun reyestrdən çıxarılması tarixi və səbəbləri | Enerji auditorunun fəaliyyətində aşkar edilmiş nöqsanlar haqqında məlumat |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | | | |